Xalq qəzeti 2021.23 may.S.4.

# Azərbaycan–Rusiya münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır

***Azərbaycan – Rusiya arasındakı münasibətlər, ilk növbədə, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa söykənir. Bununla bağlı son illərdə imzalanan "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat", "Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında 2024-cü ilədək Əməkdaşlıq Proqramı" kimi sənədlər həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri baxımından mühüm önəm daşıyır, başqa sözlə, ölkələrimiz arasında siyasi dialoqu, ticari-iqtisadi inkişafı, investisiya qoyuluşu məsələlərini, yeni nəqliyyat dəhlizlərinin yaradılması, mədəni, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və digər sahələr üzrə yol xəritələrini özündə əks etdirir.***



İki dövlət arasında iqtisadi münasibətlər xüsusi önəm daşıyır. Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, əslində bu, ölkələrimiz arasında əməkdaşlığın miqyasının və əhəmiyyətinin bariz ifadəsidir.

Bütün bunlar haqqında mayın 20-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiyaya rəsmi səfəri çərçivəsində Rusiya Hökumətinin Sədri Mixail Mişustinlə görüşündə ətraflı bəhs edilib. Görüşdə Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin artırılmasına, iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlığa dair aktual məsələlər müzakirə olunub. Həmçinin koronavirus infeksiyası ilə birgə mübarizə məsələləri nəzərdən keçirilib.

Rusiya Hökumətinin başçısı görüşdə bildirib ki, bu ölkələr arasında əlaqələr Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı etimada əsaslanan münasibətləri sayəsində yüksək səviyyəyə yüksəlib. Mixail Mişustin söhbətində ticarət dövriyyəsinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıraraq, bildirib ki, pandemiyaya baxmayaraq, bu ilin yanvar-mart aylarında tərəflər arasında əmtəə dövriyyəsi təxminən 3,5 faiz artaraq, 680 milyon dollar təşkil edib. Azərbaycanda Rusiya kapitalı ilə fəaliyyət göstərən qurumların sayı 1000-ə çatıb.

Hazırda Azərbaycanın Rusiyanın 80-dən çox subyekti ilə iqtisadi əməkdaşlığı uğurla inkişaf edir. Ölkələrimiz arasında 230-dan çox hökumətlərarası və müəssisələrarası sənəd imzalanması, eynin zamanda, altı "yol xəritəsi"nin həyata keçirilməsi bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, Rusiya-Azərbaycan münasibətlərinin strateji əhəmiyyəti ilə bağlı bir məqama da diqqət yetirmək istərdik. Bu, iki ölkə əməkdaşlığının regional təhlükəsizliyə strateji töhfələr verməsidir. Mövcud resurs və potensialları ilə həm Azərbaycan, həm də Rusiya regionda təhlükəsizlik sisteminin təminatı baxımından olduqca mühüm təsir imkanlarına malikdir. Rusiya-Azərbaycan münasibətləri regionda strateji təhlükəsizlik balansını təmin etmək iqtidarında olmaqla yanaşı, əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üçün də əhəmiyyətli zəmin rolunu oynamaqdadır.

Bütün bunlar barədə Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Rusiyaya rəsmi səfəri çərçivəsində keçirilən görüşlərdə də danışılıb, bu məsələlərin mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Həmçinin İkinci Qarabağ müharibəsində hərbi əməliyyatların dayandırılması ilə bağlı Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladıqları üçtərəfli Bəyanatın Cənubi Qafqazın kompleks şəkildə inkişafı üçün geniş imkanlar açdığı nəzərə çatdırılıb, iqtisadi əlaqələrin genişləndirilməsinin, nəqliyyat və kommunikasiyaların açılmasının, yeni infrastruktur marşrutlarının yaradılmasının region ölkələrinin maraqlarına cavab verdiyini bildirilib. Eyni zamanda, Azərbaycan Prezidenti və hökuməti tərəfindən 44 günlük müharibə zamanı Rusiya Federasiyasının rolununun yüksək qiymətləndirildiyi xatırladılıb, bu dövlətin hərbi əməliyyatların yekununda imzalanmış üçtərəfli razılaşmanın bəndlərinin yerinə yetirilməsinə tərəfdar olduğu yüksək dəyərləndirilib.

Burada hərbi əməliyyatların yekununda imzalanmış üçtərəfli razılaşmanın bəndlərinin yerinə yetirilməsi vəziyyəti barədə danışarkən, ilk növbədə, onu qeyd edək ki, Rusiya sözügedən bəyanatın imzalanmasından ötən müddətdə adı çəkilən sənəddə nəzərdə tutulan bəndlərin icrası istiqamətində fəal iş aparıb. Azərbaycan Prezidenti İlham Əliyev mayın 10-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, bu barədə ətraflı danışılıb. Dövlətimizin başçısı görüş zamanı məsələ ilə bağlı Rusiya Prezidenti Vladimir Putinlə sıx dialoq aparıldığını, müntəzəm əlaqə saxlanıldığını diqqətə çatdırıb: "Bütün bunlar ona gətirib çıxarır ki, biz müsbət inkişafı, təhlükəsizliyin, sabitliyin möhkəmlənməsini, hərbi əməliyyatların yenidən başlanması risklərinin minimallaşdırılmasını və tariximizin bu qara səhifəsini çevirmək istəyini müşahidə edirik. Hər halda, Azərbaycan buna hazırdır. Yüksək səviyyədə dəfələrlə səslənmiş bəyanatlar kommunikasiya layihələrinin inkişafı məsələsində bizim mövqeyimizə dəlalət edir. Bu barədə noyabrda müharibənin yekunları üzrə Bəyanatda da deyilib və bu istiqamətdə çox fəal iş aparılır. Bildiyiniz kimi, bu yaxınlarda - iki həftə bundan əvvəl Moskvada geniş ikitərəfli gündəlik üzrə Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın iclası, habelə üç ölkənin Baş nazirlərinin müavinlərinin üçtərəfli görüşü keçirilib".

Dövlətimizin başçısı daha sonra birgə Bəyanatda nəqliyyat dəhlizlərinin açılması ilə bağlı yer alan mühüm bəndin reallaşması üzrə önəmli addımlar atıldığını, Azərbaycan tərəfindən dəmir yolu və avtomobil yolları infrastrukturunun bərpası üzrə önəmli tədbirlər görüldüyünü, icra ilə əlaqədar konkret müddətlər nəzərdə tutulduğunu və bu layihənin ən yaxın vaxtlarda reallaşması üçün həmin müddətlərə riayət etməyə çalışıldığını xatırladıb.

Sözügedən birgə Bəyanatla bağlı onu da vurğulayaq ki, Rusiya bu tarixi əhəmiyyətə malik olan sənədin, eləcə də bu il yanvarın 11-də Moskvada Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşün nəticələrinə müvafiq olaraq nizamlanma barədə razılaşmaların yerinə yetirilməsinə maraqlıdır. Hazırda Rusiyanın sülhməramlı kontingenti Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri ilə razılaşdırılan həmin vəzifələri yerinə yetirir. Rusiya bu gün, həmçinin Azərbaycanın Ermənistanla sərhəd ərazilərində delimitasiya, demarkasiya ilə bağlı məsələlərin həlli istiqamətində də hərbi ekspertlərin, diplomatların iştirakı ilə qarşılıqlı məqbul qərarların qəbulunu diqqət mərkəzində saxlayır.

Bütün bunlarla bərəabər, hazırda Qarabağda Humanitar Müşahidə Mərkəzinin fəaliyyəti Rusiyanın Fövqəladə Hallar Nazirliyi ilə sıx bağlıdır. Tərəflər humanitar məsələlərin həlli, yaşayış yerlərinin, nəqliyyat infrastrukturunun bərpası istiqamətində səmərəli tədbirlər həyata keçirirlər.

Prezident İlham Əliyev mayın 10-da Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən, iki ölkə arasında strateji əməkdaşlığın digər istiqamətləri barədə də ətraflı bəhs edilib, humanitar, təhsil, mədəni layihələrin ardıcıl şəkildə reallaşdırılması məsələlərinə toxunulub. Dövlətimizin başçısının Azərbaycanda rus dilinə olan daimi diqqəti, Rusiya ali məktəblərinin filiallarının uğurlu fəaliyyəti, universitetlər arasında birgə həyata keçirilən proqramların əhəmiyyəti yüksək qiymətləndirilib.

Bütün bunlarla bərabər, koronavirus infeksiyasına qarşı mübarizədə hər iki dövlət daha səmərəli qarşılıqlı fəaliyyətin təmin olunması istiqamətində ardıcıl iş aparır. Bir müddət əvvəl Azərbaycana "Sputnik V" vaksininin birinci partiyasının gətirilməsi bunun bariz ifadəsidir.

Əlbəttə, bütün bunlar Rusiya-Azərbaycan münasibətlərinin dinamik, davamlı inkişafa malik olduğunu göstərir. Bəzi ermənipərəst qüvvələr isə tərəflər arasındakı regional sabitlik, təhlükəsizlik və inkişafa xidmət edən münasibətlərin pozulmasında maraqlıdırlar. Amma əminliklə söyləmək olar ki, Rusiya-Azərbaycan münasibətlərinin pozulmasında maraqlı olan qüvvələrin cəhdləri iflasa məhkumdur.

Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafı erməni lobbisi və onun təsiri altında olan bəzi ermənipərəst, anti-Azərbaycan dairələri narahat edir, bu münasibətlərə xələl gətirilməsinə cəhdlər göstərilir. Ancaq münasibətlərin xarakteri, dərinliyi və inkişaf perspektivi, habelə dövlət başçıları arasında mövcud olan qarşılıqlı etimad və dostluq belə cəhdlərin baş tutmayacağını və iflasa uğrayacağını şərtləndirən mühüm amillərdir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***